edilməsi deməkdir. Yekun olaraq qeyd edək ki, Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinin "yaşıl enerji" zonasına çevrilmək potensialı var və bu, ölkəmizdə "yaşıl iqtisadiyyat " ın formalaşmasına böyük töhfə verəcəkdir. Nəzərə alaq ki, işğaldan azad olunmuş ərazilərdə mövcud olan bütün infrastruktur düşmən tərəfindən dağıdılmışdır. Hazırda həmin ərazilərdə infrastrukturun bərpası da "yaşıl iqtisadiyyat" prinsiplərinə əsasın həyata keçirilir, yeni salınan şəhər və kəndlərdə, sənaye zonalarında ekoloji normaların gözlənilməsi prioritetdir. İşğaldan azad edilmiş ərazilərdə "netto sıfır emissiya" zonasının yaradılmasının rəsmən bəyan edilməsi də bunun göstəricisidir. Qənaətimizcə, qarşıdakı illərdə işğaldan azad olunmuş ərazilərimiz "yaşıl iqtisadiyyat" prinsipləri ilə inkişaf edən dünyanın nümunəvi məkanlarından biri olacaqdır.

***Ədəbiyyat:***


1. Qasımlı, V.Ə. İqtisadi artım. Bakı: 2021, 250 s. 25.
2. Qasımlı, V.Ə. Yaşıl inkişaf: enerji səmərəliliyi və alternativ mənbələr. / V.Qasımlı, Z.Vəliyev, M.Hümbətov, Ş.Hacıyev, G.Nəsibova. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı: 2014, 144 s.


## ÖLKƏDƏ QEYRİ-NEFT SEKTORUNUN İXRAC POTENSİALININ GENİŞLƏNDİRİLMƏSİ VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ


*Mirzəyeva Vüsalə*
*Elmi rəhbər: Bayramov Şahin, i.f.d.,dos.*
*Mingəçevir Dövlət Universiteti*


Azərbaycan Respublikasında qeyri-neft sektorunun ixrac potensialının genişləndirilməsi və inkişaf etdirilməsi ölkəmizin qarşısında dayanan əsas vəzifələrdən biridir. Tezis qeyri-neft sektorunda ixrac potensialının inkişafını,həmçinin rəqabətqabiliyyətliliyinin artırılması üçün istifadə edilə bilən müxtəlif mexanizmləri müəyyən edir. İqtisadi dayanıqlılığın təmin edilməsi üçün neft sektoru ilə yanaşı qeyri-neft sektorunun da inkişafının sürətləndirilməsi,artım dinamikası eyni zamanda ölkədə təbii,maddi və əmək resurslarından düzgün şəkildə istifadə olunması vacibdir. Tədqiqatın məqsədi təbii resurslar və iqtisadi amillər nəzərə alınmaqla qeyri-neft sektorunun ixrac potensialı dərindən tədqiq edilməli, perspektiv dövrdə onun potensialı obyektiv qiymətləndirilməlidir. Ölkədə qeyri-neft sektorunun ixrac potensialının, onun rəqabətqabiliyyətliliyinin artırılması üçün iqtisadiyyatın diversifikasiyalaşdırılması və innovasiyalaşdırma prosesi sürətləndirilməlidir. Bütün meyarlar nəzərə alınaraq perspektiv dövr ərzində planlaşdırılmış hədəflərə nail olmaq üçün qeyri-neft sektorunun ixrac potensialı genişləndirilməli və inkişafı sürətləndirilməlidir.

Son illərdə ölkədə iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən olan qeyri-neft sektorunun inkişafı sahəsində əsaslı nailiyyətlər əldə olunmuş, onun ümumi daxili məhsulda xüsusi çəkisi üstünlük təşkil etmişdir.Respublikamızda rəqabət qabiliyyətli və ixrac potensialı yüksək olan məhsulların istehsalı genişlənmişdir.İqtisadiyyat Nazirliyinin məlumatına görə, keçən il 2022-ci illə

müqayisədə ixrac məqsədilə daxildə emal gömrük proseduru üçün idxal olunan mallarının dəyərində 85 faiz, prosedurdan yararlanan şirkətlərin sayında isə 77 faiz artım müşahidə edilib [1].

Son illərdə ölkəmizdə ixrac potensialının gücləndirilməsi istiqamətində bəzi mühüm layihələr həyata keçirilib. Nəticədə özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və s. kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Ötən il ölkə üzrə qeyri-neft məhsullarının ixracı 2022-ci illə müqayisədə faktiki qiymətlərlə 9,8, real ifadədə 3,9 faiz artaraq 3 milyard 348 milyon dollar təşkil etmişdir.Bu yüksəliş ölkədə icra olunan iqtisadi islahatlarla bağlıdır.Yeyinti məhsulları üzrə ixrac 928 milyon dollar, elektrik enerjisinin ixracı 3,3 dəfə, spirtli və spirtsiz içkilərin ixracı 1,9 dəfə, plastmas və ondan hazırlanan məmulatların ixracı 19,3 faiz, qara metallardan məmulatların ixracı 13,3 faiz, meyvə-tərəvəz ixracı isə 8,7 faiz artıb.

Keçən il Rusiya Federasiyasına 1,1 milyard dollar, Türkiyəyə 783,9 milyon dollar, Gürcüstana 332,5 milyon dollar, İsveçrə Konfederasiyasına 175,3 milyon dollar, Qazaxıstana isə 95 milyon dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub [2].

Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (33,3 faiz), Türkiyəyə (23,4 faiz), Gürcüstana (9,9 faiz), İsveçrəyə (5,2 faiz), Qazaxıstana (2,8 faiz), Türkmənistana (2,5 faiz), Ukraynaya (2,4 faiz), Birləşmiş Ərəb Əmirliklərinə (2,1 faiz), Qırğızıstana (1,8 faiz), Rumıniyaya (1,3 faiz), Özbəkistana (1,3 faiz), İtaliyaya (1,3 faiz), Latviyaya (1,2 faiz), Almaniyaya (1,0 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir [3].

İİTKM-də hesabat konfransında "Bir pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən 2023-cü ildə 5 ölkəyə – İsveçrə, Rusiya, Türkiyə, Gürcüstan və İtaliyaya 243 milyon ABŞ dolları dəyərində ixrac həyata keçirilib. İxrac edilən məhsullar isə əsasən, qiymətli metallar, süd və qənnadı məhsulları, polad boru və pambıq mahlıcı olub [4].

Məlumdur ki, ixracın strukturunda xam neft, təbii qaz və neft-qaz məhsulları üstünlük təşkil edir. Bununla yanaşı, ötən il ixracda meyvə və tərəvəzlərin, plastik kütlə və ondan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, alüminium və ondan hazırlanan məmulatların, pambıq lifi və ipliyinin, qara metallar və ondan hazırlanan məmulatların, alkoqollu və alkoqolsuz içkilərin, bitki yağlarının da payı yüksək olmuşdur [5].

Qeyri-neft sektorunun inkişafını daha da sürətləndirmək üçün bu sahəyə birbaşa xarici investisiyalar cəlb etməklə daxili istehsalın rəqabət qabiliyyətinin gücləndirilməsi, idxalın əvəzlənməsi fəaliyyətinin dəstəklənməsi və yerli məhsullarla özünü təminetmə səviyyəsinin daha da yüksəldilməsi, qeyri-neft sektorunun ixrac imkanlarının artırılması milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində strateji məqsədlər olaraq müəyyən edilmişdir:

1. ölkədə istehsal edilməyən yeni rəqabətqabiliyyətli məhsullar istehsalının təşkili üçün investisiya təşviqi mexanizmi;

2. rəqabətqabiliyyətli istehsalının dəstəklənməsi məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi mexanizmi;

3. sahibkarlıq subyektlərinin istehsal fəaliyyətinin dəstəklənməsi üçün onların kadr potensialının artırılmasına dövlət dəstəyi mexanizmi

4. sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsi;

5. ölkə iqtisadiyyatına birbaşa investisiyalar cəlb edilməsinin dəstəklənməsi mexanizmləri və s. [6].

Nəticədə, qeyri-neft sektorunun rəqabət və ixrac qabiliyyətinin artırılması məqsədilə:

- qeyri-neft sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsi, alternativ maliyyələşməyə açıq investisiya layihələrinin təqdim olunması, yerli malların ənənəvi və yeni bazarlara çıxış imkanlarının genişləndirilməsi, qeyri-neft məhsulları istehsalçılarının beynəlxalq bazara inteqrasiyası prosesinin sürətləndirilməsi və bu sektorun ixrac qabiliyyətinin artırılması;
- birbaşa xarici investisiyaların cəlb edilməsi, potensial imkanlarının təkmilləşdirilməsi və investisiya cəlbediciliyinin daha da artırılması məqsədilə ölkədə alternativ maliyyələşməyə açıq layihələr və yeni investisiya imkanları istifadəsi və s. kimi bu sektorun inkişafına yönələn tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik.

***Ədəbiyyat:***


1. Vaqif Bayramov. "İdxal-ixraca yaşıl işıq". Xalq qəzeti.18.02.2024 https://xalqqəzeti.az
2. Vaqif Bayramov. "Azərbaycan malları xarici bazarları fəth edir". Xalq qəzeti. 02.02.2024. https://xalqqəzeti.az
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. URL: www.stat.gov.az
4. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin. URL: https://ereforms.gov.az
5. Rüstəm Kamal "İxrac olunan qeyri-neft məhsullarının həcmi və çeşidi artır ". Azərbaycan qəzeti. 27.02.2024.
6. Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında. URL: https://e-qanun.az/framework/40086


## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA MÜƏSSİSƏLƏRİN ROLU


*Sultanova Röya Natiq qızı*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Azərbaycan Respublikasının görkəmli iqtisadçı alimlərinin milli sənaye və kənd təssərrüfatının inkişafına həsr olunmuş elmi-nəzəri və praktiki əhəmiyyətli samballı əsərləri də bu baxımdan xüsusi dəyərləndirilməlidir: Səmədzadə Z.Ə. [1],